

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 167 (21.319)

27 avqust 2015-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


***Günü-gündən yenilənən qədim Naxçıvan özünün inkişaf və tərəqqisi ilə bu gün nümunə gücündədir. Diyarımızın müasirliyə qovuşması muxtar respublikada bütün sahələrdə həyata keçirilən islahatlar, görülən genişmiqyaslı və məqsədyönlü işlər hesabına mümkün olub. Bu sahədə tikinti-quruculuq tədbirlərinin davamlı xarakter alması xüsusi qeyd olunmalıdır.***

## Culfa rayonunun üç yaşayış məntəqəsində kompleks quruculuq işləri sürətlə davam etdirilir

Konkret bir ünvanda, Culfa rayonunda cari ilin ötən dövrü ərzində reallaşdırılmış quruculuq tədbirlərinə diqqət yetirək. Rayon iqtisadiyyatının bütün sahələrinin dinamik inkişafı tikinti-quraşdırma, abadlıq və yenidənqurma işlərinin artmasına, yeni infrastruktur obyektlərinin yaradılmasına imkan verib. Bu ilin birinci yarısında bütün maliyyə mənbələrindən əsas kapitala 14 milyon 273 min 300 manat və yaxud 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 1,9 faiz çox investisiya yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi 1,6 faiz artaraq 12 milyon 626 min 900 manat olub.

Cari ilin ötən dövründə rayonun Şurud və Bənəniyar kəndlərində yeni kənd və xidmət mərkəzlərinin, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Culfa Rayonlararası Müayinə Məntəqəsinin tikintisi, Culfa şəhərinin M.Əsgərov küçəsində yerləşən 18 və 20 nömrəli binaların, Bənəniyar kəndində 648 şagird yerlik, Şurud kəndində 110 şagird yerlik məktəb binalarının əsaslı təmiri başa çatdırılıb. Hazırda rayon mərkəzində "Naxçıvanterminalkompleks" Birliyi üçün yeni inzibati bina və anbar kompleksinin, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Geoloji Axtarış İdarəsinin inzibati binasının və yardımçı binalarının tikintisi davam etdirilir.

Ümumilikdə, rayonda bir sıra istiqamətlərdə – təhsil, səhiyyə, mədəniyyət, rabitə, meliorasiya və irriqasiya sistemləri sahəsində tikinti, yenidənqurma və əsaslı təmir işlərinin aparılması mövcud problemləri aradan qaldırıb. İstifadəyə verilən bütün obyektlərdə müasir iş şəraiti yaradılıb, maddi-texniki baza gücləndirilib.

Görülən işlərin davamı kimi hazırda rayonun 3 yaşayış məntəqəsində kompleks quruculuq işləri həyata keçirilir.

Bu yaşayış məntəqələrindən biri Gal kəndidir. Məlumat üçün öncə onu bildirək ki, digər ünvanlarda aparılan quruculuq işlərinin tərkibinə daxil olan yolların yenidən qurulması bu kəndi də əhatə edib. Belə ki, Dizə kəndi ərazisindən başlayaraq Gal kəndinə qədər olan yol yatağı genişləndirilir, hamarlama işləri aparılır, asfalt örtük salınması üçün hazırlıq tədbirləri görülür, kənddə isə 3 obyekt inşa olunur. Yaşayış məntəqəsində təhsilin səviyyəsini daha da yüksəltmək məqsədilə tikilən yeni məktəb binası zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarətdir. 96 şagird yerlik məktəb binasının tikintisini Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Culfa Rayon İdarəsinin inşaatçıları aparırlar.

Məktəbin direktoru Təranə Nəsirova deyir ki, Gal məktəbində yaxşı təhsil ənənələri yaradılıb. Bu ənənələr məktəbin uğurlarının ilbəil artmasına öz təsirini göstərir. 2014-2015-ci tədris ilində məktəbi bitirən 5 məzundan 4-nün ali məktəbə qəbul olunmasını son həddə hesab etməyən Təranə müəllimə onu da vurğuladı ki, onlar üçün yeni məktəb binası inşa edilməsi pedaqoji kollektivin məsuliyyət hissini daha da artırıb.

Tikinti ilə tanış olarkən keyfiyyət amilinin diqqətdə saxlanıldığını gördük. Öyrəndik ki, yerli inşaat materiallarından istifadəyə üstünlük verilir. İdarənin rəisi Tahir Əliyevin bildirdiyinə görə, müəllim və şagirdlərin ixtiyarına geniş və işıqlı sinif, kompüter, şahmat otaqları, elektron lövhəli sinif, laboratoriya, idman zalı, hərbi kabinə, kitabxana, həyətdə açıq idman qurğuları veriləcək. Müasirtipli layihə əsasında inşa olunan binanın əsas hörgü işləri tamamilə başa çatdırılıb, çardaq qurulub, qapı-pəncərələr salınıb. Hazırda binadaxili tikinti tədbirləri həyata keçirilir, həyətyanı ərazi qaydaya salınır. İnşaatçılar yeni məktəb binasını nəzərdə tutulan vaxtda təhvil vermək əzmi ilə çalışırlar. Adıçəkilən idarənin bir qrup inşaatçısı kənd və xidmət mərkəzlərinin tikintisi ilə məşğuldur. Kənd mərkəzi 2, xidmət mərkəzi 1 mərtəbədən ibarətdir. Kənd mərkəzində Galda fəaliyyət göstərən dövlət qurumları üçün müasir şərait yaradılacaq. Xidmət mərkəzində mağazalar və ət satışı yeri fəaliyyət göstərəcək.

Quruculuq tədbirləri rayonun Qızılca kəndini də əhatə edir. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Naxçıvan Şəhər İdarəsi bu yaşayış məntəqəsində 120 şagird yerlik məktəb binasının, kənd və xidmət mərkəzlərinin inşasını həyata keçirir. Hər 3 obyektdə çalışan inşaatçılar yaradılan şəraitdən səmərəli istifadə edirlər. Belə ki, binaların çardaqları qurulub, qapı-pəncərələri salınıb, digər tikinti işləri sürətlə davam etdirilir. Keyfiyyət amilinə ciddi önəm verilir.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Culfa Rayon İdarəsinin bir qrup inşaatçısı isə rayonun Saltaq kəndində yeni məktəb binasının inşası ilə məşğuldur. Məktəb binası zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarətdir. 215 şagird yerlik binanın tikintisinə mart ayında başlanılıb. Hazırda hörgü işləri dördüncü mərtəbədə davam etdirilir, digər mərtəbələrdə müxtəlif tikinti tədbirləri yerinə yetirilir.

Kənddə mövcud olan köhnə məktəb binası isə müasir layihə əsasında yenidən qurulur. Burada kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası fəaliyyət göstərəcək.

Beləcə, günləri həftələrə, həftələri aylara çevrilən 2015-ci il Culfa rayonunun quruculuq xəritəsinə öz izlərini yazmaqdadır və bu izlər insan amilinə xidmət etməklə bölgənin simasını tamamilə yeniləşdirməkdədir. Həyata keçirilən belə böyükhəcmli quruculuq tədbirlərini culfalılar onlara göstərilən dövlət qayğısının növbəti təzahürü kimi dəyərləndirir, muxtar respublikada böyük səylər və zəhmət hesabına nail olunmuş sosial-iqtisadi inkişafa töhfələrini verməyi özlərinin vətəndaşlıq borcu sayırlar.

**Muxtar MƏMMƏDOV**

## Naxçıvan Müəllimlər İnstitutunun yaradılmasının 15 illiyi qeyd olunub

*Naxçıvan Müəllimlər İnstitutunda bu ali təhsil ocağının yaradılmasının 15 illiyi münasibətilə tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları ulu öndərimizin Naxçıvan şəhərindəki əzəmətli abidəsi önünə gül dəstələri qoyaraq Heydər Əliyev Muzeyini ziyarət ediblər.*



Naxçıvan Müəllimlər İnstitutunda keçirilən tədbiri giriş sözü ilə institutun rektoru, professor Oruc Həsənli açaraq kollektivi əlamətdar gün münasibətilə təbrik edib, günün əhəmiyyətindən danışıb.

Sonra institutun keçdiyi yol haqda çıxış edən rektor bildirib ki, ümummilli liderimiz Heydər Əliyevin 2000-ci il 13 iyul tarixli Fərmanına əsasən, Naxçıvan Politexnik Texnikumunun bazasında Azərbaycan Müəllimlər İnstitutunun Naxçıvan filialı yaradılıb. 2003-cü il avqustun 26-da filial Naxçıvan Müəllimlər İnstitutuna çevrilib və müstəqil fəaliyyətə başlayıb. Ölkəmizdə həyata keçirilən məqsədyönlü təhsil islahatları Naxçıvan Müəllimlər İnstitutunun da fəaliyyətinə geniş imkanlar açıb. Ötən dövrdə institutun binası yenidən qurularaq lazımi tədris şəraiti yaradılıb, maddi-texniki baza gücləndirilib. Ali təhsil müəssisəsində bu imkanlardan yararlanaraq ixtisaslı kadrların hazırlanması sahəsində mühüm nailiyyətlər əldə edilib. 15 il bundan öncə 21 tələbə ilə fəaliyyətə başlayan institutda hazırda 1100 tələbə və 25 magistr təhsil alır.

Qeyd edilib ki, 2011-ci ildə Naxçıvan Müəllimlər İnstitutunun fəaliyyət istiqamətləri genişləndirilib, yeni ixtisaslar açılıb. 2003-cü ilə qədər Naxçıvan Müəllimlər İnstitutunda İbtidai təhsilin pedaqogikası və metodikası və Məktəbəqədər tərbiyənin pedaqogikası və metodikası ixtisaslarında təhsil verilirdisə, bu gün İbtidai sinif müəllimliyi, Riyaziyyat və informatika müəllimliyi, Təsviri incəsənət müəllimliyi, Məktəbəqədər təlim və tərbiyə, Təhsildə sosial-psixoloji xidmət və Pedaqogikanın nəzəriyyəsi və tarixi ixtisasları üzrə də bakalavr və magistr kadrları hazırlanır. Bu gün institutda mütərəqqi təhsil metodları və informasiya texnologiyaları geniş tətbiq olunur, təhsil Boloniya sistemi üzrə aparılır. Bu da dünya təhsil sisteminə inteqrasiya baxımından mühüm əhəmiyyət daşıyır. Son illər mütərəqqi tədris metodlarından istifadə tələbələrin bilik və dünyagörüşünün inkişaf etdirilməsinə səbəb olub.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış edib. Professor, müəllim və tələbə heyətini əlamətdar gün münasibətilə təbrik edən Rəhman Məmmədov bildirib ki, müasir Naxçıvanın intibah tarixinin əsasının qoyulduğu 1995-ci ildən sonra təhsil sahəsində həyata keçirilən tədbirlər savadlı, dünyagörüşlü, vətənpərvər gəncliyin yetişdirilməsinə şərait yaradıb. Vətənə xidmət amalı ilə yetişdirilən bu günün gəncləri nazirdir, komitə sədridir, deputatdır, alimdir, müəllimdir, idmançıdır, həkimdir. Gənclərin bu pilləyə gəlib çatmasında isə müəllimlərin rolu böyükdür. Görkəmli pedaqoq Məhəmməd Tağı Sidqi müəllim zəhmətinə yüksək qiymət verərək yazırdı ki, "Məktəb bir cismə bənzər ki, onun ruhu müəllimdir". Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri muxtar respublikada Məhəmməd Tağı Sidqinin qeyd etdiyi kimi məktəbin ruhu olan müəllimlərin də qayğısına qalıb, onların əməyini daim yüksək qiymətləndirib. Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının qiymətləndirilməsi aparılan müəllimlərin dərs yükünün və əməkhaqqının artırılması haqqında" 2015-ci il 22 iyun tarixli Sərəncamı ilə ümumtəhsil müəssisələrində çalışan bilik və bacarıqlarının qiymətləndirilməsi aparılan müəllimlərin həftəlik dərs yükünün 1,5 dəfə, aylıq vəzifə maaşlarının isə orta hesabla 2 dəfə artırılması müəllimlərə göstərilən diqqət və qayğının əyani ifadəsidir.

Qeyd edilib ki, muxtar respublikada müəllim kadrların hazırlanmasında Naxçıvan Müəllimlər İnstitutunun böyük rolu vardır. Bu institutun yaradılması isə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ötən 15 ildə Naxçıvan Müəllimlər İnstitutu yaradılmış şəraitdən istifadə etməklə müəllim kadrların hazırlanması sahəsində fəaliyyət göstərib, 1300-dən çox müəllim hazırlayıb. Muxtar respublikada müəllim əməyinin yüksək qiymətləndirilməsinin və ən ucqar dağ kəndlərində belə, müasir memarlıq üslubunda məktəb binalarının tikilməsinin, onların hər cür maddi-texniki baza ilə təmin olunmasının nəticəsidir ki, Naxçıvan Müəllimlər İnstitutunun məzunları bu təhsil ocaqlarında işlə təmin ediliblər.

Sonra məruzələr ətrafında institutun tədris işləri üzrə prorektoru, filologiya elmləri doktoru, professor Akif İmanlının, İbtidai sinif müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi Aytən Qasımovanın çıxışları olub. İnstitutun müəllimlərindən Kamal Camalov, Nazim Əhmədov, Həsənəli Eyvazlı, Sədaqət Həsənova, Yaqub Məmmədov və başqaları bu ali təhsil ocağının keçdiyi yola qısa nəzər salaraq əldə edilən nailiyyətlər haqda danışıblar.

Sonda fəaliyyətində fərqlənən əməkdaşlara fəxri fərmanlar təqdim olunub.

**Səbuhi HÜSEYNOV**

## Əmək yarmarkasında 32 nəfərə işə göndəriş verilib

***İşaxtaran vətəndaşların münasib iş yerləri ilə təmin olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən həyata keçirilən aktiv məşğulluq tədbirləri davam etdirilir.***

Yerli məşğulluq mərkəzləri tərəfindən xidməti ərazi üzrə idarə, müəssisə və təşkilatlardan boş iş yerləri barədə məlumatlar toplanılaraq əmək yarmarkalarına təqdim edilir. Növbəti belə əmək yarmarkası dünən Babək rayonunda keçirilib. Babək Rayon Məşğulluq Mərkəzində təşkil olunan tədbiri mərkəzin direktoru Qurban Tarverdiyev açaraq bildirib ki, muxtar respublikamızın hərtərəfli inkişafı əhalinin məşğulluğunun təmin olunmasında mühüm rol oynayır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" muxtar respublikamızda yeni iş yerlərinin açılmasına, regiondakı əmək ehtiyatlarının iqtisadi fəallığının yüksəldilməsinə xidmət edir. Dövlət proqramından irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün mərkəzin əməkdaşları rayondakı idarə, müəssisə və təşkilatlarda, sahibkarlıq subyektlərində boş iş yerləri haqqında məlumatlar toplayaraq həmin yerləri əmək yarmarkalarında işaxtaran vətəndaşlara təqdim edirlər. Bugünkü əmək yarmarkası da işaxtaran vətəndaşların münasib işlə təmin olunmaları baxımından əhəmiyyətlidir.

Babək Rayon İcra Hakimiyyətinin şöbə müdiri Vəli Vəliyev çıxışında qeyd edib ki, rayonun sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən tədbirlər əhalinin məşğulluğuna müsbət təsir göstərib, bunun da nəticəsində yüzlərlə insan müvafiq işlə təmin olunub. Keçirilən əmək yarmarkaları işaxtaran vətəndaşların müvafiq işlərlə təmin olunması ilə bərabər, həm də əhalinin sosial müdafiəsinin gücləndirilməsi baxımından önəmlidir.

İşaxtaran vətəndaş Seyran Həsənov vurğulayıb ki, yeni iş yerlərinin yaradılması və əmək yarmarkaları vasitəsilə işaxtaranlara təqdim olunması əhali tərəfindən rəğbətlə qarşılanır. Əmək yarmarkalarının təşkilində əməyi olanlara minnətdarlığını bildirən Seyran Həsənov qeyd edib ki, hər kəs burada öz ixtisasına və bacarığına uyğun iş yeri axtara bilər.

Sonra yarmarkaya gələnlər onlara təqdim olunan vakant iş yerləri ilə tanış olublar. 18 təşkilatdan 68 boş iş yerinin çıxarıldığı yarmarkada 32 nəfərə işə göndəriş verilib, 4 nəfər peşə hazırlığı kursuna cəlb edilib.

Qeyd edək ki, növbəti əmək yarmarkası bu gün Şərur rayonunda keçiriləcək.

**Səbuhi HƏSƏNOV**

# Davamlı sosial-iqtisadi inkişaf muxtar respublikamızda daha böyük nailiyyətlərin əldə olunmasına zəmin yaradır

***Muxtar respublikamızda infrastrukturun yenilənməsi, müasir müəssisələr, yeni iş yerlərinin yaradılması istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi, uzunmüddətli və hərtərəfli inkişaf konsepsiyasının reallaşdırılmasına əsaslı töhfələr verib. Muxtar respublika rəhbəri tərəfindən qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi, müvafiq islahatların vaxtında aparılması, qəbul edilən dövlət proqramlarının icrası Naxçıvanda inkişafın yeni mərhələsinin başlanğıcını qoyub, bölgələrimizin tərəqqisini təmin edib.***



Böyük uzaqgörənliklə müəyyənləşdirilmiş bu inkişaf strategiyasının nəticələri son illərdə özünü daha qabarıq şəkildə büruzə verib, şəhər və kəndlərimizin siması köklü şəkildə dəyişilib. Hazırda muxtar respublikamızın hər bir sakini quruculuğun, sosial-iqtisadi inkişafın, davamlı yüksəlişin real nəticələrini öz gündəlik həyatında hiss etməkdədir. Bütün bunlar ümummilli liderimiz Heydər Əliyevin uğurlu siyasi xəttinin böyük nailiyyətlərlə davam etdirilməsi nəticəsində mümkün olub.

Həyata keçirilən uğurlu siyasət və ərzaq təhlükəsizliyi proqramı nəticəsində hazırda muxtar respublikamızda sənaye müəssisələri, quşçuluq, heyvandarlıq, balıqçılıq, taxılçılıq, üzümçülük təsərrüfatları, kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü, saxlanması, emalı və satışı kompleksləri yaradılıb, bir sıra ərzaq məhsulları üzrə daxili istehsal xeyli artıb. Bütün bu müsbət proseslər ümumi daxili məhsulun artımına səbəb olub. 2015-ci ilin yanvar-iyul aylarının nəticələri də belə deməyə əsas verir. Belə ki, muxtar respublikada cari ilin yanvar-iyul aylarında 1 milyard 294 milyon 428 min 200 manatlıq ümumi daxili məhsul istehsal olunub ki, bu da 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 5,8 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2014-cü ilin yanvar-iyul ayları ilə müqayisədə 6,5 faiz artaraq 2935,9 manata çatıb.

Son 20 ildə muxtar respublikamızın inkişaf prioritetləri nəzərə alınmaqla dövlətin infrastruktur və investisiya siyasəti ilə biznesin investisiya strategiyaları əlaqələndirilib və bu da müsbət nəticələrə rəvac verib. Təsadüfi deyil ki, son 20 ildə muxtar respublikamızın iqtisadi və sosial həyatında dinamik inkişaf prosesi davam edib, istehsal və xidmət sahələrində qazanılan uğurlarımız daha da artıb. Bir sıra istehsal sahələrində məhsul buraxılışının həcminin artması, investisiya fəallığının güclənməsi, sahibkarlığın stimullaşdırılması və təşəbbüskarlığa geniş meydan verilməsi muxtar respublikamızın iqtisadi dayaqlarını xeyli möhkəmləndirib. Cari ilin yanvar-iyul aylarında iqtisadiyyatın əsasını təşkil edən sənayenin inkişaf etdirilməsi üçün rəqabətqabiliyyətli müasir istehsal sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması sahəsində mövcud layihələrin icrası davam etdirilib, bu istiqamətdə stimullaşdırıcı tədbirlər həyata keçirilib. Bu sahədə mühüm malların istehsalının təmini muxtar respublikamızda sənayenin iqtisadiyyatda xüsusi çəkisini qoruyub saxlayıb. Təsadüfi deyil ki, Naxçıvanda yaradılan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 566 milyon 401 min manat həcmində məhsul istehsal edilib ki, bu da 2014-cü ilin müvafiq dövründəki göstəricini 2,8 faiz üstələyib.

Naxçıvanda yeni yolların çəkilməsi, köhnə yol-nəqliyyat infrastrukturunun müasir tələblərə uyğun yenidən qurulması daim diqqət mərkəzində saxlanılır. İndi hansı qəsəbəyə, kəndə yol çəkilirsə, həmin ərazidə həm də ən müasir tələblərə cavab verən yeni infrastruktur yaradılır. Bu isə həyatın, sözün əsl mənasında, canlanmasıdır. Nahaq yerə demirlər ki, müasir yol, müasir infrastruktur dövlətin iqtisadi qüdrətini nümayiş etdirməklə yanaşı, həm də yeni həyatın başlanğıcıdır. Cari ilin yanvar-iyul aylarında muxtar respublikamızda bu istiqamətdə işlər uğurla davam etdirilib. İnfrastruktur quruculuğu çərçivəsində bəhs olunan dövrdə əsas kapitala 558 milyon 821 min manat həcmində investisiya yönəldilib. Bu da bir il öncəki göstəricidən 0,8 faiz çoxdur. Əsas kapitala yönəldilmiş investisiyaların 494 milyon 143 min manatı və ya 88,4 faizi tikinti-quraşdırma işlərinin payına düşüb.

Bu gün muxtar respublikamızda informasiya-kommunikasiya texnologiyaları sektoru dinamik inkişaf edir. Bu il ərzində də rabitə və yeni texnologiyalar sahəsində müsbət meyillər davam etdirilərək bir sıra uğurlu nəticələr əldə olunub, xidmət səviyyəsi xeyli yüksəldilib, rabitə xidmətlərinin həcmi artıb. 2015-ci ilin yanvar-iyul aylarında informasiya və rabitə xidmətlərinin həcmi 27 milyon 677 min manat olub. Bu da 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 2,1 faiz çoxdur. Qeyd olunan dövrdə mobil rabitə xidmətlərinin həcmi 23 milyon 290 min manat olmaqla bir il öncəki göstəricini 1,8 faiz üstələyib.

Son 20 ildə muxtar respublikamızda inşa edilmiş su anbarları, hidroqovşaqlar, kanallar, drenaj şəbəkələri, subartezian quyuları aqrar sektorun, sahibkarlığın inkişafını sürətləndirib, yeni torpaqların əkin dövriyyəsinə cəlb edilməsinə, içməli su və enerji təchizatının daha da yaxşılaşdırılmasına imkan yaradıb. Muxtar respublika iqtisadiyyatının ən vacib sahəsi olan kənd təsərrüfatında bu gün istehsalın və ixracın stimullaşdırılması, məhsulun rəqabətqabiliyyətliliyinin artırılması və əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsinə dövlət dəstəyinin səmərəliliyinin yüksəldilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilib. Kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin gücləndirilməsi, yeni çağırışlara uyğun strateji hədəflərin və institusional dəyişikliklərin müəyyənləşdirilməsi sözügedən sahənin keyfiyyətcə yeni mərhələyə keçməsinin təməlini qoyub, nəticədə, kənd təsərrüfatı məhsullarının istehsalı artıb. Cari ilin yanvar-iyul ayları ərzində 202 milyon 127 min manat həcmində kənd təsərrüfatı məhsulu istehsal olunub ki, bu da 2014-cü ilin müvafiq dövründəki göstəricini 8,7 faiz üstələyib. Bu dövr ərzində muxtar respublikada 11,9 min ton ət (diri çəkidə), 57 min ton süd istehsal edilib, 2014-cü ilin yanvar-iyul ayları ilə müqayisədə ət istehsalı 5,5 faiz, süd istehsalı 1,4 faiz artıb.

Muxtar respublikada qazanılan iqtisadi uğurlardan bəhrələnməklə, ilk növbədə, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə, insanların güzəranının yaxşılaşdırılmasına mühüm önəm verilir, sosial məsələlərin həllinə böyük diqqət yetirilir. Həyata keçirilmiş sosial siyasət nəticəsində bu ilin yeddi ayı ərzində də muxtar respublika əhalisinin rifahının yüksəldilməsinə, onların sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən çoxsaylı tədbirlər reallaşdırılıb. Nəticədə, əhali gəlirləri üzrə müsbət dinamika davam etməkdədir. Cari ilin yanvar-iyul aylarında muxtar respublikada əhalinin gəlirləri 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 5,3 faiz artaraq 977 milyon 244 min manat, onun hər bir nəfərə düşən həcmi isə 4,3 faiz yüksələrək 2216,5 manat təşkil edib. 2015-ci ilin yanvar-iyul aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği 392,8 manat təşkil edib və bu göstərici əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,2 faiz artıb.

Muxtar respublikanın sürətli iqtisadi inkişafında özəl sektorun, kiçik və orta sahibkarlığın rolu daha da artır. Özəl sektorun, kiçik və orta sahibkarlığın inkişafı təkcə biznes mühitinin yaxşılaşdırılmasının, yeni iş yerləri yaradılmasının göstəricisi deyil, bu həm də sistemli və elmi əsaslara söykənən islahatların nəticəsidir. Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanlarının davamlı olaraq yaxşılaşdırılması da aparılan məqsədyönlü siyasətin müsbət nəticələrindəndir. Cari ilin yeddi ayı ərzində muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 47 milyon 347 min manata yaxın kreditlər verilib. Bu da 2014-cü ilin müvafiq dövründəki göstərici ilə müqayisədə 44,2 faiz çoxdur. Yəni bu sahədə nəzərəçarpan inkişaf, irəliləyiş bu gün də davam edir.

Muxtar respublikada iqtisadiyyatın şaxələndirilməsi və dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaradıb. Naxçıvanın xarici dövlətlərlə ticarət əlaqələrinin 1995-ci ilin səviyyəsini dəfələrlə ötməsi də bunu təsdiqləyir. Reallıq budur ki, bu gün Naxçıvanda istehsal olunan məhsullara maraq hər gün daha da artır və bu malları alan ölkələrin sırası getdikcə genişlənir. Bunun nəticəsidir ki, son illər ticarət dövriyyəsinin strukturunda mühüm dəyişikliklər baş verib. Bu baxımdan 2015-ci ilin ilk 7 ayının nəticələri də diqqəti cəlb edir. Cari ilin yanvar-iyul aylarında muxtar respublikada 242 milyon 222 min Amerika Birləşmiş Ştatları dolları həcmində xarici ticarət dövriyyəsi qeydə alınıb. İxracın həcmi son bir il ərzində 5,8 faiz artaraq 213 milyon 61 min Amerika Birləşmiş Ştatları dollarını ötüb, idxalın həcmi isə 58,1 faiz azalaraq 29 milyon 161 min Amerika Birləşmiş Ştatları dolları həcmində olub. Xarici ticarət üzrə 183 milyon 900 min Amerika Birləşmiş Ştatları dollarından artıq həcmdə müsbət saldo yaranıb.

Müasir dünyamızda turizm istənilən ölkənin milli dəyərlərindən birinə çevrilib. Ölkə iqtisadiyyatına çox böyük həcmdə gəlir gətirən turizm sektoru istər milli mənfəətə, istərsə də ölkənin dünyada tanınmasına ciddi təsir göstərməkdədir. Kontinentlərin və əlaqələrin yaranışından bu günə kimi regionun vacib keçid bölgəsi rolunda çıxış edən Naxçıvan 5 minillik mədəniyyətin beşiyidir. Bu təsirin yaratdığı fərqlilik, zənginlik Naxçıvana turizm diyarı kimi böyük üstünlüklər bəxş edib. Muxtar respublikamızın hər bölgəsində fərqli təsirlərin, zəngin gözəlliklərin şahidi olmaq mümkündür. Naxçıvan yalnız qədim, antik mədəniyyəti ilə deyil, həm də müasirliyi ilə fərqlənir. Qədim diyarımızı gözəlləşdirən, fərqləndirən, ona üstünlük bəxş edən amil də məhz budur. Bir sözlə, Naxçıvan həm qədim tarixi, həm coğrafi mövqeyi, həm də sahib olduğu füsunkar təbii gözəllikləri baxımından böyük üstünlüyə malikdir. Buna görə də muxtar respublikamıza gələn turistlərin sayı hər il daha da artır. Belə ki, cari ilin yanvar-iyul ayları ərzində muxtar respublikaya 207 min 374 nəfər turist gəlib. Bu da 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 3,4 faiz və ya 6807 nəfər çoxdur.

Muxtar respublikada yeni iş yerlərinin açılması, əhalinin gəlirlərinin artması, gənclərin problemlərinin həllinə yönəldilmiş dövlət siyasətinin uğurla həyata keçirilməsi və onların iqtisadiyyata daha çox cəlb olunması demoqrafik artım üçün geniş imkanlar açır. Bu həm də miqrasiya saldosunun müsbət olaraq qalmasına ciddi təsir göstərir. Açıqlanan son nəticələr də belə deməyə əsas verir. Belə ki, 1 iyul 2015-ci il tarixə muxtar respublikada əhalinin sayı bir il öncəyə nisbətdə 4193 nəfər və ya 1 faiz artaraq 441731 nəfər təşkil edib. Bu tendensiya gələcək illərdə yüksələn xətlə davam edəcəkdir.

***Göründüyü kimi, muxtar respublikamızda optimal inkişaf modelinə üstünlük verilməsi mühüm sosial-iqtisadi və ictimai-mədəni problemlərin həllinə əsaslı təsir göstərib. Naxçıvan blokada şəraitində yaşamasına baxmayaraq, cari ilin ilk yeddi ayı ərzində də bütün sahələrdə əldə edilən nailiyyətlər dediklərimizi təsdiq edir. Nəticə etibarilə, strateji əhəmiyyətə malik olan muxtar respublikamızın sosial-iqtisadi, mədəni inkişafı onu regional cazibə mərkəzinə çevirib.***

✍ **Rauf ƏLİYEV**

*İstehsal müəssisələri*

# Kərpic Zavodunun istehsal gücü artırılıb

*"Gəmiqaya Kərpic Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyəti son illər Naxçıvan Muxtar Respublikasında həyata keçirilən genişmiqyaslı quruculuq tədbirləri nəticəsində yerli tikinti materiallarına olan tələbatın ödənilməsi zərurətindən yaradılmışdır.*

Muxtar respublikamızda belə müəssisələrin yaradılmasının nəticəsidir ki, daxili bazar keyfiyyətli yerli tikinti materialları ilə təmin olunur. İldən-ilə genişlənən quruculuq tədbirləri Kərpic Zavodunun istehsal gücünün artırılması və qış mövsümündə də tam gücü ilə işləməsi zərurətini yaratmışdır. Bu məqsədlə hazırlanmış yeni layihəyə uyğun olaraq, zavodda süni qurutma sexi inşa olunmuş, burada Türkiyə istehsalı olan və kompüterlə idarəetmə mərkəzi ilə təmin edilmiş müasir texnoloji avadanlıqlar quraşdırılmışdır. Kərpiclə dolu diyircəkli arabaların avtomatik hərəkəti üçün dəmir relslər çəkilmiş, istiliklə təminat və nəmliyin aradan qaldırılması üçün xüsusi qurğular qurulmuşdur. Eni 12, uzunluğu 50 metr olan süniqurutma sexi 4 kameradan ibarətdir. Hər kameraya ilkin olaraq 13 min ədəd kərpic yığılır. İlk mərhələdə kərpicin nəmliyi götürülür, ikinci mərhələdə qurutma prosesi başlanır. Rejimə uyğun olaraq, hər 7-15 dəqiqədən bir qapılar avtomatik açılır, hər kameradan kərpic dolu bir diyircəkli araba xaric olmaqla digəri sexə daxil olur. Ümumilikdə, qurutma sexinin 8 saatlıq iş rejimində gündəlik istehsal gücü 20 min kərpicdir.

Kərpicbişirmə sexində yaranan istilik xüsusi borularla aspirator vasitəsilə sorulub süniqurutma sexinə ötürülür. Bununla, həm istilik sisteminin dövriyyəsi təmin edilir, həm də enerji itkisinin qarşısı alınır. Zərurət yarandıqda isə qurutma sexində qurulmuş istilik avadanlığından da istifadə edilir. Qurutma sexinin fəaliyyət göstərməsi zavodun mövsümdən asılılığını aradan qaldırmış, müəssisənin fasiləsiz fəaliyyəti təmin edilmişdir. Müəssisənin bir-birini tamamlayan 3 istehsal sahəsində – kərpickəsmə, kərpicbişirmə və qurutma sexlərində istehsal prosesinin təkmilləşdirilməsi və daha müasir texnoloji avadanlıqların alınıb quraşdırılması istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir. Layihəyə uyğun olaraq, kəsmə sexində yeni müasir texnoloji avadanlıqlar quraşdırılmış, xammalın iki mərhələdə üyüdülməsi təmin edilmiş, kərpicbişirmə sexində əlavə sobalar tikilərək sayı 30-a çatdırılmışdır. Süniqurutma sexində isə Türkiyə istehsalı olan daha bir istilik avadanlığı quraşdırılmışdır. İstehsal olunan məhsulun təbii hava şəraitində qurudulması və saxlanılması üçün əlavə çardaqlar qurulmuş, rəflər hazırlanmış, zavod daxilində yük daşınması üçün yüksək manevr etmək imkanlarına malik müasir texnikalar alınmışdır.

Zavod fəaliyyətə başlayan zaman gün ərzində 25 min ədəd kərpic istehsal olunurdusa, yeni layihənin həyata keçirilməsi və daha müasir texnoloji avadanlıqlar alınıb quraşdırılmasından sonra gün ərzində 45-50 min ədəd kərpic istehsal etmək imkanı yaranmışdır.

Türkiyədən alınmış müasir texnoloji avadanlıqlar məhsulun keyfiyyətli istehsal olunmasında mühüm rol oynayır. Zavod xammalın yerləşdiyi ərazidə inşa olunduğundan əlavə daşınma xərci çəkilmir, boşdayanma hallarına yol verilmir. İstehsal prosesi konveyer üsulu ilə həyata keçirilir, texnoloji proseslərə və məhsulun keyfiyyətinə ciddi əməl olunur.

Zavodda istehsal edilən səsboğucu, radiasiyasız, yayda sərin, qışda isə isti saxlayan keyfiyyətli tikinti materialı kimi kərpicə tələbat ildən-ilə artır. Bu da, təbii ki, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının və əhalinin maddi rifahının daha da yaxşılaşmasının göstəricisidir.

Zavodun istehsal gücünün artırılması artan tələbatın ödənilməsinə və daxili bazarın keyfiyyətli yerli tikinti materialları ilə təmin edilməsinə əlverişli şərait yaratmaqla bərabər, əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayır. Hazırda müəssisədə 131 nəfər çalışır ki, onlar da yüksək əməkhaqqı, xüsusi geyim formaları və servis xidməti ilə təmin olunmuşlar. Kollektiv cari ili uğurlu göstəricilərlə başa vurmaq üçün mövcud imkanlardan səmərəli istifadə etməyə səy göstərir.

✍ **Kərəm HƏSƏNOV**

# Məhəmməd Tağı Sidqinin ev-muzeyinin yaradılması onun fəaliyyətinə və yaradıcılığına verilən yüksək dəyərin ifadəsidir

***1854-cü ildə Ordubadda anadan olan Məhəmməd Tağı Sidqi ilk təhsilini Molla Məhəmməd Tağı adlı axundun məktəbində almış və sonra təhsilini Hüseyn Soltan mədrəsəsində davam etdirməklə klassik Şərq poeziyasını və fəlsəfəsini öyrənmişdir. Maarifçilik fəaliyyəti dövründə məktəbdarlıq, ədəbiyyat, teatr və mətbuat sahələrində əvəzsiz xidmətlər göstərən Məhəmməd Tağı Sidqi təkcə Azərbaycanda deyil, Yaxın Şərq ölkələrində də tanınmışdır.***

Məhəmməd Tağı Sidqi 1892-ci ildə Ordubad şəhərində ilk dəfə olaraq "İbrahimxan mədrəsəsi" adlanan binada yeni üsullu, dünyəvi və ana dilində təhsil verən bir məktəb açmış və ona "Əxtər" – yəni "Ulduz" adı vermişdir. Bu məktəbin yaranması o zaman həm Ordubad, həm də Naxçıvan mühiti üçün mühüm pedaqoji hadisə idi. Köhnə mollaxanalardan fərqli olaraq, bu məktəb ana dilli məktəb idi. Məktəbin tədris planına ana dili, hesab, coğrafiya, hifzi-səhiyyə, fars və ərəb dilləri daxil edilmişdi. Sidqi öz məktəbi üçün əlyazması şəklində hesab, ana dili və coğrafiya dərslikləri də tərtib etmişdi.

Sidqinin vətəninə, xalqına olan məhəbbətini eşidən Naxçıvanın qabaqcıl ziyalıları onu mərkəzə gətirmək istəyirlər. Bu münasibətlə Sidqiyə məktublar göndərib onu Naxçıvana dəvət edirlər.

Görkəmli maarifçi 1894-cü ildə naxçıvanlı ziyalıların köməyi ilə "Məktəbi-tərbiyə"ni təsis edib pedaqoji fəaliyyətini davam etdirir. M.T.Sidqinin pedaqoji fəaliyyəti, təlim üsulları, tədris, təlim və tərbiyə haqqındakı fikirləri o dövr ziyalıları üçün böyük bir təcrübə məktəbi idi. Görkəmli yazıçı Mirzə Cəlilin "...həmin məktəb biz yeniyetmə müəllim və ədiblər üçün də bir darülfünun hesab olunur" deməsi də "Tərbiyə" məktəbinin necə mütərəqqi mövqedə durduğuna böyük bir sübutdur.

1894-cü ilin ilk dərs günlərindən başlayaraq Sidqi var qüvvəsini uşaqlara hərtərəfli bilik verməyə sərf edir. O, məktəb üçün ayrıca tədris planı, dərs cədvəli, təqvim iş planı, maliyyə planı, şagirdlər üçün ədəb qaydaları və sairə tərtib edib məktəbə cəlb olunmuş şagirdlərə hərtərəfli dünyəvi biliklər verilməsinə çalışırdı.

Xalqının maariflənməsi üçün çalışan M.T.Sidqinin işləri heç də asan başa gəlmirdi. Bir sıra yerli məmurlar onun işinə əngəl törədirdilər.

Çar Rusiyası və yerli hakim dairələr Sidqinin bu tərəqqipərvər fəaliyyətinə mane olur və nəyin bahasına olursa-olsun, onu müdirlikdən uzaqlaşdırmaq istəyirdilər. Hakim dairələrin əlində formal və lüzumsuz bəhanələr də var idi. Bu bəhanə isə Sidqinin müəllimlik sənədinin olmaması idi. Nəhayət, yerli çar üsuli-idarələri M.T.Sidqinin müəllimlik attestatının olmadığını bəhanə edərək onu müdirlikdən azad edir və Sidqini "Tərbiyə" məktəbində ana dili müəllimi saxlayırlar. Qısa bir müddətdə imtahan verib müəllimlik attestatı almazsa, Sidqini müəllimlikdən də çıxaracaqlarını bildirirlər.

1902-ci ildə Sidqi müəllimlik attestatı almağa müvəffəq olur. Lakin bunların heç biri Sidqinin müdirliyə qayıtmasına şərait yaratmır. O, ömrünün sonunadək "Tərbiyə" məktəbində ana dili müəllimi işləyir. Sidqinin ölümündən sonra məktəbin adı dəyişdirilərək bir çox məktəblər kimi "Rus-tatar" məktəbi adı altında fəaliyyət göstərir.





M.T.Sidqinin sevimli tələbələrindən olan Hüseyn Cavid bu acınacaqlı vəziyyətdən bəhs edərək yazırdı: "Naxçıvan on beş il əvvəl cəhalət uyqusundan diksinmək ehtiyacını duydu, maarif dairəsinə girmək istədi. Milli məktəb təsis etdi, mərhum Sidqi sayəsində çalışıb-çapalamağa həvəsləndi... Hərəkət etməyə başladı. Sidqi vətənpərvər idi, məslək sahibi idi, millətini sevərdi. Məktəbin məktəbliyi də onunla bərabər bitdi. Sonra nə oldu… Məktəb qapandımı? Xeyr, qapanmadı… Lakin nə zərər verdi, nə xeyir gətirdi. Zira qapansa idi, gözəl, həzin bir arzu ruhu oxşar idi, insanı məşğul edərdi. Məktəbin bu uyğunsuz yaşaması hər kəsi iyrəndirdi. Xalqa böyük bir dərd oldu".

M.T.Sidqinin yorulmaz fəaliyyəti nəticəsində "Tərbiyə" məktəbində yeni ziyalı nəsli (Əliqulu Qəmküsar, Əziz Şərif, Rza Təhmasib, Əli Səbri Qasımov, Bəhruz Kəngərli, Məmmədəli Sidqi və başqaları) yetişmişdi. Bu yeni nəslin nümayəndələrindən biri də M.S.Ordubadi idi ki, o da "Əxtər" məktəbinin yetirməsi idi.

Azərbaycan maarif və məktəbdarlığının inkişafı tarixində Sidqinin göstərdiyi misilsiz xidmətlər yalnız təsis etdiyi məktəblərlə bitmir. O, "Tərbiyə" məktəbində müdir və müəllim olduğu müddətdə "Heykəli-insana bir nəzər", "Puşkin", "Kəblə Nəsir" kimi mətn, "Məsnəviyyati-mədəniyyət", "Həkimanə sözlər", "Yüz il yatandan sonra" kimi ictimai-siyasi, fəlsəfi, etik, elmi-pedaqoji əsərlər, "Nümuneyi-əxlaq", "Coğrafiya xüsusunda məlumati-mücmələ", "Tənviri-əfkar və təfhimi-insaniyyət" (Ədəbiyyat), "Töfheyi-bənat, yainki qızlara hədiyyə" kimi lüzumlu dərsliklər yazmışdır.

M.T.Sidqinin "Məktəbi-tərbiyə" şagirdləri üçün hazırladığı ədəb qaydaları bu gün də öz təsir qüvvəsini itirməmişdir və müasir məktəblərimizdə həmin qaydalara əməl edilməsi vacib şərtlərdən biri sayılmalıdır.



Yorulmaz maarif fədaisinin Azərbaycan maarifi və mədəniyyətinin tərəqqisində göstərdiyi xidmətləri Cəlil Məmmədquluzadə belə qələmə almışdır: "Sidqinin vətənimizə etdiyi qulluğun qədrini bilməkdən ötrü lazımdır müqabilə etmək camaatımızın savad və maarif aləmində olan indiki əhvali ilə on il bundan əqdəm halətini. Tərəqqi çox artıq görünür və əgər söyləsək ki, bu tərəqqinin onda doqquzuna bais məhz Sidqidir, insafdan və həqiqətdən bilmərrə uzaq olmaz. O hörmət və məhəbbət ki, camaatımız mərhuma göstərirdi, indiyə kimi heç bir şəxsə göstərməyib…"

M.T.Sidqi təkcə məktəbdar kimi deyil, həm də maarifçi şair və yazıçı kimi ad-san qazanmışdır. Sidqinin yaradıcılığında maarifçi şeirlərin xüsusi yeri vardır. Pedaqoji görüşlərində məktəbi "cəhalət dərdinin dərmanı", müəllimi isə "cəhalət bağının bağbanı" sayan görkəmli maarif xadiminin poetik öyüdnamələrində də elm ilə dünyanın abad olunmasının mümkünlüyündən, dünya dillərini öyrənməyin faydalarından, kamil insan olmaq qayəsindən geniş bəhs olunur. Oğlu Məmmədəli Sidqiyə yazılmış maarifçi şeirləri, sözün geniş mənasında, yeni nəslə xitab kimi səslənir.

Naxçıvan teatrının ilk yaradıcılarından olan Məhəmməd Tağı Sidqi bu teatrın inkişafı məsələləri ilə yaxından məşğul olmuşdur. 1894-1899-cu illərdə "Dram Cəmiyyəti" üzvləri ilə birlikdə M.F.Axundovun "Hekayəti-molla İbrahimxəlil kimyagər", "Sərgüzəşti-mərd-xəsis", "Sərgüzəşti-vəziri-xani-Lənkəran" komediyalarının Naxçıvan xanı Rəhim xanın evində tamaşaya qoyulmasına nail olan Məhəmməd Tağı Sidqi M.F.Axundovun "Hekayəti müsyö Jordan-həkimi-nəbatat və dərviş Məstəli şah-cadüküni-məşhur" komediyasına rejissorluq etmişdir. Böyük pedaqoq və maarifçi bu yolla milli teatrın imkanlarını xalqın maariflənməsinə, ictimai-mədəni tərəqqiyə cəlb etmişdir. O, Avropa, rus və Şərq mətbuatı ənənələrini öyrənib tətbiq etmiş, geniş ictimai və maarifçilik fəaliyyəti göstərmişdir.



Xalqımızın ümummilli lideri Heydər Əliyev Naxçıvan mühitinin formalaşmasında Məhəmməd Tağı Sidqinin fəaliyyətini yüksək qiymətləndirərək demişdir: ***"Naxçıvanda təhsilin, ümumiyyətlə, mədəniyyətin inkişafında mütəfəkkir Məhəmməd Tağı Sidqinin böyük rolu olmuşdur".***

Bu mənada, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Görkəmli maarifçi Məhəmməd Tağı Sidqinin ev-muzeyinin yaradılması haqqında" 2014-cü il 17 sentyabr tarixli Sərəncamı Sidqinin həyat və yaradıcılığına verilən yüksək dəyər və qiymətdir. Sərəncama uyğun olaraq, Ordubad şəhərində görkəmli maarifçi M.T.Sidqinin ev-muzeyi üçün yeni bina tikilmişdir. Avqustun 25-də muzeyin açılış mərasimində Ali Məclisin Sədri Məhəmməd Tağı Sidqi yaradıcılığının böyük bir xəzinə olduğunu bildirərək demişdir ki, bu xəzinədən gənclərin yetişməsində məqsədyönlü istifadə etmək təhsil müəssisələrinin və pedaqoji kollektivlərin borcudur. Bu gün Ordubad şəhərində Məhəmməd Tağı Sidqinin ev-muzeyinin istifadəyə verilməsi də onun zəngin pedaqoji və ədəbi irsinin yaşadılması, bugünkü və gələcək nəsillərə çatdırılması istiqamətində atılan növbəti addımdır.

Bəli, Məhəmməd Tağı Sidqinin Ordubad şəhərində tikilən ev-muzeyi ona ucaldılan böyük bir abidədir. Bu muzeyin yaradılması ədibin ömür yoluna olan ehtiramın, fəaliyyətinə və yaradıcılığına verilən yüksək dəyərin bariz ifadəsidir. Bu həm də görkəmli şəxsiyyətin bir zamanlar Naxçıvanda təhsilin və milli inkişafın gücləndirilməsi üçün göstərdiyi əvəzsiz xidmətlərə verilən ən layiqli qiymət, onun fədakar müəllim əməyi və fəaliyyətini bu günün və gələcəyin müəllimlərinə təbliğ etmək kimi mühüm əhəmiyyət daşıyır.

**Oruc HƏSƏNLİ**
***professor***

---

*Gəncliyimiz – gələcəyimiz*

# Yaradılan şərait gənclərin daha yaxşı təhsil almalarına geniş imkanlar açır

*Blokada şəraitində yaşayan və buna baxmayaraq, sürətlə inkişaf edən muxtar respublikamızın təhsil ocaqlarının göstəriciləri ölkə miqyasında seçilməkdə, ali məktəblərə qəbulun səviyyəsi ilbəil artmaqdadır. Nailiyyətlərin təməlində isə, heç şübhəsiz ki, təhsilə göstərilən dövlət qayğısı, təhsil ocaqları üçün yeni-yeni binaların inşa olunması, məktəblərimizin maddi-texniki bazasının gücləndirilməsi, bu işdə böyük fədakarlıq göstərən müəllimlərimizin əməyinin layiqincə qiymətləndirilməsi dayanır. Builki qəbul imtahanlarında Babək rayonunun qazandığı uğurlar xüsusilə qeyd etmək olar. Belə ki, rayonun ümumtəhsil məktəblərindən ali məktəblərə sənəd verən 498 abituriyentdən 262-si tələbə adını qazanıb. Onlardan 46 nəfəri 500-700 intervalında bal toplayıb. Həmin gənclər sırasında Uzunoba kənd tam orta məktəbinin məzunları olan əkiz qardaşların qazandığı uğurlar daha çox diqqət çəkir. Biz də həmin gəncləri oxucularımızla yaxından tanış edirik.*



***Fərid HÜSEYNLİ:*** – 1998-ci ildə Uzunoba kəndində anadan olmuşam. Kənd tam orta məktəbində təhsil almışam. Elə orta təhsil illərində arzum o olub ki, tələbə adını qazanım. Bu arzuma çatmaq üçün çox çalışdım. Qəbul imtahanında aşağı bal toplamağı fikrimə belə gətirmirdim. Çünki məktəbimizdə yaradılan yüksək şərait, mütəmadi olaraq sınaq imtahanlarında iştirakım məni addım-addım tələbə adını qazanmağa yaxınlaşdırırdı. Arzum mühəndis olmaq idi. 667 bal toplayaraq Qafqaz Universitetinin Mexanika mühəndisliyi fakültəsinə qəbul olundum. Bir gənc kimi qürurlanıram ki, mənə inananları və etimad göstərənləri sevindirdim. Ona görə də 2015-ci il ən unudulmaz il olaraq həyatıma yazıldı. Həm də ona görə ki, bu günlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun muxtar respublikada 2014-2015-ci tədris ilində ümumtəhsil məktəblərini bitirmiş və ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə görüşündə mən də iştirak etdim. Ən çox arzularımdan biri də bu görüş idi. Ali Məclisin Sədri biz gənclərə dedi ki, bu gün kitab oxumaq, yaxşı təhsil almaq işin yalnız bir tərəfidir. Əsas məsələ özünü yüksəkixtisaslı kadr kimi hazırlamaqdır. Ona görə də seçdiyiniz ixtisasa dərindən yiyələnməli, kamil mütəxəssis kimi yetişməlisiniz. Bu sözlər biz gənclər üçün çox önəmli tövsiyədir. Çünki bizim hələ uzun yolumuz var. Tələbə həyatı yaşayacağım qarşıdakı illərdə də, ondan sonra da ixtisaslı mütəxəssis kimi yetişməyə çalışacağam.



***Fuad HÜSEYNLİ:*** – Uşaqlıqdan evdə bizə çoxlu mütaliə etməyi aşılayıblar. Dəqiq elmlərə isə marağım daha çox olub. Kitablardan birində oxumuşdum ki, görkəmli diplomat Behbud ağa Şahtaxtinski yazıb ki, yüksək təhsilə, mədəniyyətə və elmi gücə malik olanlar həmişə qalib gəlirlər. Və çalışmışam ki, güclü biliyə malik olum. Biliyə yiyələnmək üçün isə gərək çox çalışasan. Mən dərslərdə müəllimlərimə diqqətlə qulaq asaraq verilən tapşırıqları mənimsəyirdim. Daim mütaliə edərək qazandığım bilikləri daha da möhkəmləndirirdim. Kitabxanada istədiyim ədəbiyyatı əldə edə bilirdim. Onu deyim ki, kompüterə böyük həvəsim vardır. Məktəbimizdə kompüterlərdən istifadə etməyimiz üçün hər cür şərait var. Yaradılan şəraitdən istifadə edərək həvəslə oxudum, əlaçı şagird kimi valideynlərimi qazandığım uğurlarla həmişə sevindirdim. Azərbaycan Respublikasında keçirilən fənn olimpiadasında fizika fənni üzrə III yerə layiq görülərək gümüş medal qazandım. Ancaq bu uğurlardan sonra da arxayınlaşmadım. Çünki irəlidə məni böyük bir imtahan gözləyirdi. Bu imtahandan daha böyük qələbə ilə çıxmağı qarşıma məqsəd qoymuşdum. Qəbul imtahanlarında 660 bal toplayaraq Qafqaz Universitetinin Kompüter mühəndisliyi fakültəsinə qəbul olundum. Artıq qeydiyyatdan keçmişəm. Sentyabr ayının 15-ni səbirsizliklə gözləyirəm. Çünki ən böyük arzularımdan olan tələbə kimi təhsilimi davam etdirəcəyəm.

✍ **Sara ƏZİMOVA**

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# Naxçıvanın qədim geyim mədəniyyəti və bu geyimlərin özünəməxsusluğu haqqında nə bilirik?



**Geyimin tarixi də insanın tarixi qədər qədimdir. Geyim öz yaranışından bəri böyük bir inkişaf yolu keçmişdir. Hələ Neolit dövründən başlayaraq ibtidai insanlar əyirmə, hörmə və arxaik şəkildə olsa da, tikmə qabiliyyətinə malik olmuşlar.**

Geyim əsas etibarilə iki: çiyin və bel geyimi hissələrinə bölünür. Çiyin geyimləri, adətən, sadəbiçimli və bel geyimlərinə nisbətən qədimdir. Bel geyimləri isə sonralar nisbətən inkişaf etmiş və onlardan da tuman və şalvar kimi geyimlər meydana gəlmişdir. Azərbaycan milli geyim dəstinin elementləri aşağıdakılardan ibarət idi: çəpkən (nimtənə), tuman, köynək, müvafiq olaraq baş geyimi, arxalıq, baharı, kürləcə, kürdü, eşmək, canlıq, ləbbadə, katibi, üst tumanı, meyzər (önlük), çaxçur və sair.

Geyimlər hər bir xalqın tarixilə sıx bağlıdır və məxsus olduğu xalqın maddi-mədəniyyətinə xas olan xüsusiyyətləri özündə əks etdirir. Adət-ənənələr, milli təfəkkür, xalq yaradıcılığı geyimlərin müxtəlifliyində, rəngarəngliyində, hətta naxışlarda üzə çıxır. Yüzilliklər ərzində formalaşan, milli dəyərlərə söykənərək uzun inkişaf prosesi keçən geyimlərimiz özünəməxsusluğu ilə seçilir. Azərbaycan ərazisində yaşayan xalqların təbii parçalardan geyimlər hazırladığı haqqında hələ eramızdan əvvəl V əsrdə yunan alimi Herodot məlumat vermişdir.

Vaxtilə Gəncə, Şəki, Naxçıvan, Marağa, Mərənd və Ordubad mühüm toxuculuq mərkəzləri idi. Naxçıvanın mahir toxucu sənətkarları çoxlu miqdarda ucuz, lakin gözəl və yüksəkkeyfiyyətli pambıq parça istehsal edirdilər. Onların hazırladığı rəngarəng çit parçalara böyük tələbat var idi.

Naxçıvanda çox istifadə edilən geyimlərə nəzər salaq. Kişi geyimləri bu baxımdan çox maraqlıdır. Naxçıvana aid kişi geyimləri içərisində Azərbaycanın digər zonalarında olduğu kimi arxalıq, quşqar, şalvar, çuxa, kürk, peşə səciyyəli yapıncı, dəri, keçə və müxtəlif parçalardan hazırlanan baş geyimlərindən – papaq, təskülah, börk və sair istifadə olunmuşdur.

Qeyd edək ki, XVI əsrdə Təbrizdə, Şamaxıda, Naxçıvanda və Bakıda nisbətən varlı cavanlar qısaqollu gödək üst geyimləri geyərmişlər. Bu geyimləri ən çox ova gedəndə və ya uzaq bir səfərə çıxdıqda geyərdilər.

XVIII yüzillikdə də Azərbaycan geyimləri çox rəngarəng olmuşdur. Bakıda, Qubada, Şamaxıda, Qarabağda, Naxçıvanda, Gəncədə, Lənkəranda, Şəkidə müstəqil xanlıqların yaranması geyim məsələlərinə də az təsir etmirdi. Xanlıqların fərqli siyasi və iqtisadi vəziyyətdə yaşamaları geyimin (üzdən də olsa) dəyişməsinə səbəb olmuşdur.

Geyimlərimizin əsasını təşkil edən baş geyimləri Qafqaz xalqları arasında xüsusilə əhəmiyyətli rol oynamışdır. Naxçıvanda olan kişi baş geyimləri içərisində təsək (araqçın), buxara papağı, din xadimləri üçün əmmamə (çalma) və sair kimi növlər xüsusilə seçilirdi.

*Börk.* Naxçıvanda çox geniş yayılmışdır. Əsasən qara qoyun dərisindən hazırlanırdı.

*Molla papağı.* Bu geyim növündən, əsasən, din xadimləri istifadə edir, baş geyiminin altından isə, adətən, təsək qoyulurdu. Kənarları milli naxışlarla bəzədilən təsəklər "araqçın" adlanırdı.

*Araqçın* çox geniş yayılmışdır. Gənclər xüsusilə qırmızı məxmərdən tikilən araqçınlardan istifadə edirdilər.

*Sarıq* dördbucaqlı dəsmaldan, yaxud yaylıqdan hazırlanan kişi baş geyim növü idi.

Kişi üst geyimləri içərisində isə üst köynəyi, arxalıq, çuxa, şalvar və kürk geniş yer tuturdu.

*Can köynəkləri* əsasən payız və yaz aylarında istifadə olunurdu. Qışda isə "bambəz" adlanan parçadan hazırlanan köynəklər daha çox istifadə edilirdi.

Üst köynəkləri sadə formada tikilirdi.

*Şalvar.* Xüsusi ölçü və formada hazırlanan şalvarlar nazik parçadan və yundan hazırlanırdı. Genbalaqlı və darbalaqlı olurdu.

*Əba.* Kişi üst geyimlərinə daxil olan əbalardan daha çox din xadimləri və mollalar istifadə edirdilər.

*Çuxa.* Naxçıvanda çuxalar çox qiymətli geyim növü idi. "Oyma" yaxalı çuxalar Naxçıvan bölgəsi üçün xarakterik idi.

*Qılıncı-şal.* Bu arxalıq növü üst və ətəkdən ibarətdir. Zənginlər ikiqanad arxalıq geyinərmişlər, gənclər arxalığın üzərindən kəmər, yaşlılar isə qurşaq bağlayardılar.

*Kürk.* Mövsümi geyim növü olan kürkdən daha çox şəhərdə, qismən dağətəyi kəndlərdə istifadə olunurdu.

*Yapıncı* əsasən elatlar (maldarlar) arasında geniş yayılmışdır.

Geyimin insan həyatındakı əhəmiyyətindən danışmaqla qurtarmaz. Geyimlər xalqın milli kimliyini, estetik zövqünü, milli dəyərlərini əks etdirmək baxımından əhəmiyyətli rol oynayır. Hər bir xalq öz kimliyini, öz mədəniyyətini tanıtmaq üçün, ilk olaraq, milli geyimlərdən istifadə edir. Geyimlər getdikcə dəyişir, müasir dövrlə ayaqlaşır. Lakin biz müasirliklə milli dəyərlərin sintezinin, vəhdətinin əks olunduğu geyimlər də hazırlaya bilərik.

Nərgiz İSMAYILOVA

*Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında 26 avqust – Beynəlxalq Azərbaycan Muğamı Gününə həsr olunmuş tədbir keçirilib.*

# Beynəlxalq Azərbaycan Muğamı Günü münasibətilə tədbir keçirilib

Tədbiri giriş sözü ilə kitabxananın direktoru Aytəkin Qəhrəmanova açaraq milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olan muğamlarımızdan, bu sənət incilərinin qorunması, təbliği, gələcək nəsillərə ötürülməsi istiqamətində həyata keçirilən tədbirlərdən danışıb.

Kitabxananın şöbə müdiri Nailə Əsədova "26 avqust Beynəlxalq Azərbaycan Muğamı Günüdür", Naxçıvan Şəhər 3 nömrəli Uşaq musiqi məktəbinin müəllimi Aysel Rzayeva "Simfonik muğamlar" mövzularında məruzələr ediblər.

Məruzələrdə bildirilib ki, muğam qoca Şərqin ən qədim musiqi janrlarından biri olduğu üçün dünya musiqişünaslarının diqqətini cəlb edib. Yüzilliklərlə cilalanan, zaman-zaman üslub, obraz, məzmun, ifaçılıq mahiyyəti ilə zənginləşən Azərbaycan muğamının müasir dövrdə yaşadılmasında Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən tədbirlərin müstəsna rolu vardır. Belə tədbirlərin nəticəsidir ki, son illər muğamlarımıza maraq daha da artıb. Bu qiymətli sərvətlərin YUNESKO-nun qərarı ilə dünya mədəniyyətinin qeyri-maddi irsinin bəşəri əhəmiyyətə malik inciləri sırasına daxil edilməsi muğamın təkcə Azərbaycan xalqının deyil, bütün bəşəriyyətin misilsiz mədəni sərvətinin ayrılmaz hissəsi kimi qiymətləndirilməsinə bariz nümunədir.

Bildirilib ki, Heydər Əliyev Fondunun dəstəyi və təşəbbüsü ilə son illər ənənəvi olaraq Azərbaycanda beynəlxalq muğam festivalları keçirilməkdədir. Novruz bayramı ərəfəsində təşkil edilən bu möhtəşəm musiqi bayramı dünyanın ən tanınmış musiqiçilərini bir araya gətirir. Festival zamanı keçirilən simpoziumlar, muğam müsabiqələri və bir-birindən rəngarəng konsert proqramları bir daha muğamlarımızın tədqiqinə, onun daha geniş miqyasda təbliğinə imkanlar açır.

Vurğulanıb ki, muğamlarımız dərin fəlsəfi məzmuna malikdir. Simfonik muğam isə muğamın bir janrıdır. Bu janrın əsası böyük bəstəkarımız Üzeyir Hacıbəyli tərəfindən qoyulub. Fikrət Əmirov, Niyazi, Süleyman Ələsgərov, Tofiq Bakıxanov və başqaları bu janrda gözəl əsərlər yaradıblar.

Sonra tədbirin musiqili hissəsində Naxçıvan Şəhər 3 nömrəli Uşaq musiqi məktəbinin müəllimi Ələsgər Cəlilzadənin ifaları, elektron lövhədə isə Qarabağ xanəndələrinin oxuduqları muğamlar dinlənilib.

Xəbərlər şöbəsi

# Üzgüçülük üzrə şəhər birinciliyinə yekun vurulub



*İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin Üzgüçülük Mərkəzində "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında yeniyetmə və gənclər arasında üzgüçülük üzrə Naxçıvan şəhər birinciliyi keçirilib.*

Açılış mərasimində çıxış edən mərkəzin direktoru Ramin Talıbov və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov bu yarışı keçirməkdə məqsədin məktəbliləri zərərli vərdişlərdən kənarlaşdırmaq, onlarda üzgüçülük idman növünü inkişaf etdirmək, məktəbliləri sağlam həyat tərzinə uyğunlaşdırmaq olduğunu qeyd ediblər. İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən yarışda 2 yaş qrupunda 30-a yaxın idmançı iştirak edib və üzgüçülüyün sərbəst üsulu üzrə 25 və 50 metr məsafəni qət etməyə çalışıb. Nəticəyə əsasən, 50 metr məsafədə 1999-cu il təvəllüdlü idmançılar arasında Turan Məmmədov, 25 metr məsafədə 2000-ci il təvəllüdlü idmançılar arasında Vüqar Nəsirli bütün rəqiblərini qabaqlayaraq birinci yerə layiq görülüblər.

Sonda hər yaş qrupunda I, II və III yerləri tutan idmançılara təşkilatçıların diplom və fəxri fərmanları təqdim edilib.

Ceyhun MƏMMƏDOV

# "Əlvan çiçəklər" mahnı və rəqs ansamblı milli rəqslərimizi uğurla təbliğ edir

*Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi uşaqların intellektual səviyyəsinin yüksəldilməsi, peşə vərdişlərinə yiyələnməsi, onların musiqi təhsilinin inkişaf etdirilməsində mühüm rol oynayan məktəbdənkənar tədris müəssisələrindən biridir. Mərkəzin binası 2009-cu ildə tamamilə yenidən qurularaq, yeni avadanlıqlarla təmin olunaraq istifadəyə verilib. Burada bir çox dərnək, musiqi kollektivləri fəaliyyət göstərir. Həmin kollektivlərdən biri "Əlvan çiçəklər" mahnı və rəqs ansamblıdır.*

1953-cü ildən fəaliyyət göstərən ansambl indiyə kimi öz fəaliyyətini uğurla davam etdirir. Ansamblın rəhbəri Teyyubə Cəfərovadır. O, 16 ildir ki, burada çalışır. Öz sənətinə qəlbən bağlanan Teyyubə xanım deyir:

– Hazırda ansamblda 80 nəfər müxtəlif rəqsləri öyrənir. Bu rəqs qrupunun öz yaş həddi vardır. 5 yaşından başlayıb 18 yaşına qədər olan yeniyetmə və gənclər rəqs qrupuna üzv ola bilərlər. Onların hamısının rəqsləri ustalıqla ifa etmələri üçün əlimizdən gələni əsirgəmirik. Bu, o demək deyil ki, uşaqların hamısı rəqqas olacaq. Elələri var ki, onları bura ötəri həvəs gətirir. Lakin bu uşaqların bizim məşqlərə 5-6 ay müntəzəm gəlməsi belə, bizim üçün uğurdur. Çünki özünün böyümə çağını yaşayan yeniyetmələr üçün rəqs həm də onların bədən quruluşunun düzgün formalaşmasına öz təsirini göstərir. Bir də biz onlara milli rəqslərimizi öyrətməklə, təbliğ etməklə həm də gənclərin dünyagörüşünün milli mentalitetimizə doğmalıq ruhunda formalaşmasına təsir göstəririk. Çünki bu, bizim qarşımıza vəzifə kimi qoyulub. 2009-cu ildə mərkəzin binasının açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri bizə tövsiyə etdi ki, repertuarımızda milli rəqslərə üstünlük verək. Ona görə ki, milli



rəqslər xalqımızın milli adət-ənənələrini özündə yaşadır. Bu isə uşaqların adət-ənənələrimizə dərindən bələd olmasına, milli rəqslərimizin yaşadılaraq gələcək nəsillərə ötürülməsinə səbəb olacaqdır. Biz bu tövsiyələri fəaliyyətimizdə devizə çevirmişik.

Teyyubə xanımla söhbətləşə-söhbətləşə rəqs zalına daxil oluruq. Burada 15 şagird Cabir Hacıyevin rəhbərliyi ilə müxtəlif rəqs hərəkətləri öyrənir. Nihad Xudanlı, İnci Quliyeva, İlahə Məmmədova, Əli Cabbarov, Mehdi Təbrizli və başqa uşaqlar bir neçə aydır ki, məşğələlərə gəlirlər. Onlar arasında ən kiçiyi 5 yaşlı Fatimə Məmmədli diqqətimizi çəkir. Cabir müəllim onun azyaşlı olmasına baxmayaraq, rəqslərə böyük həvəsi olduğunu və gələcəkdə peşəkar rəqqas kimi yetişəcəyini bildirdi. Dedi ki, yaşadığımız müstəqillik dövründə Azərbaycan incəsənəti durmadan inkişaf edir. Rəqqaslıq sənəti də eləcə. Biz də bu inkişafdan qürur duyaraq dövlətimizin yüksək qayğı və himayəsində gələcəyin peşəkar rəqqaslarını yetişdirməyə çalışırıq. Sevinirik ki, bu gün ansambldan yolu keçən gənclər Naxçıvan Dövlət Filarmoniyasında fəaliyyətlərini uğurla davam etdirirlər. Bunlardan Rauf Hüseynov, Eldəniz Əliyev və başqalarının adlarını çəkə bilərik.

"Əlvan çiçəklər" mahnı və rəqs ansamblı fəaliyyət göstərdiyi dövr ərzində bir çox uğurlara imza atmışdır. Dünyanın bir sıra dövlətlərində qastrol səfərlərində olan bu rəqs qrupu çıxışları ilə milli rəqslərimizin təbliğinə çalışmışdır.

Rəqs ansamblına bundan sonrakı fəaliyyətində uğurlar arzulayırıq.

Nigar MUSTAFAYEVA

*İtmişdir*

Səfərov Tahir Nahas oğlunun adına olan 108013001053 reyestr nömrəli torpağın plan ölçüsü itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 658